*"Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır".*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 23 iyul 2014-cü il | № 56 (1873) | Qiyməti 25 qəpik


## Azərbaycan Respublikası Müdafiə nazirinin Milli Mətbuat Günü münasibətilə təbriki

Hörmətli mətbuat nümayəndələri!

Sizi əziz bayramınız - Milli Mətbuatımızın yaradılmasının 139 illiyi münasibətilə ürəkdən təbrik edir, hər birinizə yaradıcılıq uğurları arzulayıram.

Bugünkü Azərbaycan mətbuatı "Əkinçi" qəzetinin ləyaqətli varisidir.

Ulu əcdadımız Həsənbəy Zərdabinin redaktorluğu ilə qocaman "Əkinçi" XIX əsrin qaranlıq mühitində Azərbaycan oxucusunun beyninə və qəlbinə maarifçilik, vətənpərvərlik və işıq toxumu səpdi. O zamandan başlayaraq xalqımız öz zamanına və dünyaya işıqlı gözlərlə baxmağa başladı.

"Əkinçi"dən sonra nəşr edilən qəzet və jurnalların sayı çoxaldı, nəhayət, "Molla Nəsrəddin" kimi müdrik və müqtədir bir jurnal yaranıb bütün Şərqə nur saçdı.

Arzu edirəm ki, bu gün siz ulu sələflərimiz Həsənbəy Zərdabinin, Cəlil Məmmədquluzadənin, Əlibəy Hüseynzadənin ruhuna və məramına layiq olasınız, müstəqil dövlətimizə və xalqımıza şərəflə xidmət edəsiniz. Böyük şairimiz Səməd Vurğun 1941-ci ilin qanlı günlərində yazırdı:

"Bu gün bir süngüdür əlimdə qələm,
Mənim bayrağıma göz dikir aləm".

Bu gün Azərbaycan işğalçı Ermənistanla müharibə vəziyyətindədir. Avropanın və dünyanın gözü üçrəngli Azərbaycan bayrağındadır. Bu bayrağın Xankəndi, Şuşa və digər işğal olunmuş şəhərlərimiz üzərində ucalacağı günü, xeyrin şər üzərində qələbə gününü gözləyir.

Arzu edirəm ki, siz ordu mövzusunda yazanda qələminizi süngüyə çevirəsiniz, hər yazınızla Silahlı Qüvvələrimizin qüdrətinin artırılması məqsədilə dövlətimizin maraqlarını qoruyaraq düşmən üzərində qələbəmizi yaxınlaşdırasınız.

Mən bu yolda sizə yeni uğurlar, dəqiqlik, obyektivlik, ümumxalq mənafeyini uca tutmaq və peşəkarlıq arzulayıram.

Siz Azərbaycan mətbuatının o xoşbəxt nəslisiniz ki, ulu öndər Heydər Əliyevin və onun əvəzsiz varisi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi dövründə yaşayıb yaradırsınız. Taleyin bu qismətinə layiq olmağınızı arzulayıram.

Bir daha bayramınız mübarək olsun!

**Hörmətlə:**
**General-polkovnik**
**Zakir HƏSƏNOV**

# Azərbaycan öz qanuni torpaqlarına sahib olacaqdır

***Tarixi mənbələr sübut edir ki, Ermənistanın heç zaman əzəli yurd yerləri, məskənləri olmayıb. Əsrlər boyu orda-burda köçəri kimi yaşamış ermənilər nüfuzlu dövlətlərin himayəsinə sığınmağı özlərinə adət ediblər. Başqalarının gözündə məzlum millət kimi görünməyə çalışsalar da, onların xisləti tarix boyu üzə çıxıb. Harada terror hadisələri törədilibsə, orada erməni millətçilərinin iştirakı sübuta yetirilib.***



Şübhəsiz, bölgələrdə nüfuz dairələrini genişləndirməyə çalışan hegemon dövlətlər ermənilər kimi hiyləgər, xain bir millətdən məharətlə bəhrələnməyə çalışıb. Hələ iki əsr öncə çar Rusiyası Cənubi Qafqaz regionunda öz nüfuzunu möhkəmlətmək üçün burada qondarma Ermənistan dövlətini yaratmağa nail olub. Elə bu faktın özü sübut edir ki, heç zaman bu ölkənin rəsmiləri dövlətçilik ənənələrindən danışa bilməz, çünki Ermənistanın heç vaxt müstəqil dövlətçiliyi olmayıb.

Bu gün də rəsmi Ermənistan öz xalqının məzlum obrazını yaradaraq böyük dövlətlərin himayəsindən yararlanmağa və öz ərazilərini genişləndirməyə çalışır. Hətta tarixi mənbələrdə də saxtakarlıqlar etməyə çalışan bu dövlət işğalçılıq siyasətini davam etdirir. Hazırda kəskin blokada şəraitində olmasına və əhalisinin əsas əksəriyyətinin yoxsulluq səviyyəsində yaşamasına baxmayaraq erməni rəsmiləri həyasızcasına torpaq iddiasını davam etdirirlər.

Kəlbəcər Vətənimizin ayrılmaz bir parçasıdır. Düşmən tərəfindən işğal edilməsinə baxmayaraq bəzən insanlar öz ata-baba torpaqlarının həsrəti ilə hansısa yollarla doğma ocaqlarına baş çəkməyə çalışırlar. Bu yaxınlarda erməni silahlıları tərəfindən əsir götürülən iki dinc kəlbəcərli etiraf etdi ki, onlar bir neçə dəfə bu yerlərə baş çəkiblər və doğma ocaqlarının ətrini, qoxusunu duyublar. Amma ermənilər onlara vəhşicəsinə işgəncə verməyə və müxtəlif ifadələr əldə etməyə çalışırlar. Qoy düşmən utansın ki, əzəli yurdunun həsrəti ilə yaşayan dinc sakinlə o cür rəftar edir. Əslində bu faktlar onu deməyə əsas verir ki, Azərbaycan xalqı hər an doğma torpaqlarının həsrətini yaşayır və tam ümid edir ki, mütləq o torpaqları geri alacağıq. Düşmənin bu azğınlığı soydaşlarımızda intiqam hissini daha da gücləndirir və bu gün hər bir vətəndaşımızın düşmənə nifrəti sonsuzdür.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev rəsmi dövlət tədbirlərində və beynəlxalq qurumların nümayəndələri ilə görüşlərində dəfələrlə qeyd edib ki, Ermənistanın tarixən dövləti olmayıb və bizim ata-baba torpaqlarımızda məskunlaşaraq öz dövlətlərini yaradıblar. "Dağlıq Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Əsrlər boyu xalqımız bu torpaqlarda yaşamış, yaratmışdır. Bu gün də Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, dünya birliyi ölkəmizin ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Bugünkü Ermənistan da tarixi Azərbaycan torpaqlarında yaradılmışdır. İrəvan xanlığı, Göyçə, Zəngəzur mahalları bizim tarixi torpaqlarımızdır. Azərbaycan xalqı və dövləti Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəkdir".

Qoy düşmənlərimiz yaxşı dərk etsinlər ki, bugünkü ordumuz 10-15 il əvvəlki dövrün ordusu deyil. İndi Azərbaycanın yüksək döyüş qabiliyyətinə və müasir silah-sursata malik olan qüdrətli ordusu vardır. Ordu sıralarında xidmət edən hər bir zabit və əsgərimizin döyüş ruhu, döyüş qabiliyyəti gündən-günə artır. Hər addımda dövlətimizin və ordu rəhbərliyinin qayğısını hiss edən hərbi qulluqçularımız möhkəm iradə və döyüş əzmi ilə müharibədə qalib gəlməyə qadirdirlər.

**Mayor**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

## Baş nazirin müavini Əli Həsənov:
## Ermənistan beynəlxalq konvensiyaların tələblərini pozur

AzərTAc xəbər verir ki, məcburi köçkünlər üçün salınan yeni qəsəbədə tikinti işlərinin gedişi ilə bağlı vəziyyəti öyrənmək üçün Ağdam rayonunda olan Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov jurnalistlərin Kəlbəcər rayonu ərazisində azərbaycanlıların girov götürülməsi ilə bağlı suallarını cavablandırıb.

Əli Həsənov bildirib ki, azərbaycanlıların girov götürülməsi ilə bağlı Ermənistan tərəfi həqiqətə uyğun olmayan məlumatlar yayır. Onları diversant kimi təqdim edirlər. Guya onlar diversiya xarakterli işlər görmək istəyirdilər.

Bütün bunları cəfəngiyat adlandıran Baş nazirin müavini deyib: "Bizdə olan məlumata görə, onlar bir neçə dəfə öz kəndlərinə, doğulduqları yerə gediblər. Onlar mülki vətəndaşlardır və öz doğma ocaqlarını, əzizlərinin məzarlarını ziyarət etmək üçün bu addımı atıblar. Ermənistan tərəfinin özünün də etiraf etdiyi kimi, əgər onlar bir neçə dəfə doğma Kəlbəcər rayonuna gediblərsə, həmin vaxtlarda hansı pis hərəkəti ediblər?! Hansı partlayışı törədiblər, kimə xəsarət yetiriblər?! Heç kimə. Onlar sadəcə olaraq, Vətənini sevən bir insanlar kimi doğulduqları yerləri ziyarət ediblər".

Məsələnin Azərbaycan Prezidentinin nəzarəti altında olduğunu deyən Əli Həsənov bildirib ki, bu işlə gündəlik məşğul olunur. Baş nazirin müavini sözünə davam edərək deyib: "Məlumat dəqiqləşdirildikdən dərhal sonra Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycandakı nümayəndəliyinə bildirildi ki, təcili olaraq Yerevanda, yaxud Xankəndidə olan ofisləri ilə əlaqəyə girsinlər. Həmin ofislər vasitəsilə girov götürülən insanlarla təcili görüş istəsinlər. Bu vaxta qədər əlaqəyə girə bilməyiblər. Bu, bir daha onu göstərir ki, Ermənistan tərəfi beynəlxalq konvensiyaların tələblərini pozur. Ermənistanın özünün də Beynəlxalq Qızıl Xaç Komitəsi ilə müqaviləsi var. Ermənistan həmin müqaviləni pozaraq beynəlxalq hüququn tələblərinə əməl etmir. Həmişə olduğu kimi, dünyaya meydan oxuyur. Bu hadisədən bir həftədən çox keçib. Ancaq bu günədək Beynəlxalq Qızıl Xaç Komitəsinə girovlarla görüş verilməyib. Biz təxmini bilirik ki, onlar girov götürdükləri dinc azərbaycanlılara qarşı hansı vəhşilikləri tətbiq edirlər.

Mən azərbaycanlı qaçqın məcburi köçkünlər adından Ermənistan rəhbərliyinə müraciət edirəm. Əgər Ermənistan rəhbərliyi, bu ölkənin xüsusi xidmət orqanları o iki vətənpərvər azərbaycanlıya işgəncələr versələr və belə bir fakt aşkara çıxarılsa, Azərbaycan xalqında özlərinə qarşı yaratdıqları nifrəti 10 qat artıracaqlar. Azərbaycan xalqı, xüsusən məcburi köçkünlər o vətəndaşlarımızı qəhrəman hesab edirlər".

## Aureliya Qriqoriu:
## Dağlıq Qarabağda vəhşiliklər törədən şəxslər Beynəlxalq Məhkəmə tərəfindən məhkum olunmalıdırlar

***Moldova Respublikasının ombudsmanı Aureliya Qriqoriu Binəqədi Rayon İcra Hakimiyyətində olub.***

AzərTAc xəbər verir ki, Binəqədi Rayon İcra Hakimiyyəti başçısının birinci müavini İlqar Süleymanov A.Qriqoriunun simasında cəsarətli, əzmkar, ədalətli bir şəxsi görməkdən məmnun olduğunu diqqətə çatdırıb. Azərbaycanın haqlı mövqeyinə obyektiv və ədalətli yanaşma nümayiş etdirən moldovalı ombudsman rayon icra hakimiyyətinin inzibati binasında işçilər üçün yaradılmış şəraitlə tanış olub. İ.Süleymanov Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırmaq istiqamətində yorulmaz fəaliyyətinə görə ombudsmana təşəkkür edib.

Daha sonra qonaqla Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında görüş keçirilib. YAP Binəqədi Rayon Təşkilatının sədri Ramiz Göyüşov bildirib ki, Aureliya Qriqoriu Azərbaycan reallıqlarının dünya miqyasında yayılması, Ermənistanın Azərbaycana təcavüzü, Dağlıq Qarabağ və 7 ətraf rayonu işğal etməsi, Xocalı soyqırımı haqqında Ermənistanda "Dondurulmuş münaqişələr zonasında insan hüquqlarının qorunması" mövzusunda keçirilən konfransda beynəlxalq ictimaiyyətə geniş məlumat verib, ölkəmizin haqq səsini dünya birliyinə çatdırıb. Bundan sonra o, Ermənistan dövləti və erməni diasporunun çoxsaylı hücumlarına, hədələrinə məruz qalıb.

Ombudsman Binəqədi rayonunda olmaqdan və Binəqədi gəncləri ilə görüşməkdən məmnunluq duyduğunu qeyd edib. O, Azərbaycanı çox sevdiyini və burada ona göstərilən mehriban münasibəti yüksək qiymətləndirdiyini bildirib. Ötən il Ermənistanda keçirilən "Dondurulmuş münaqişə zonalarında insan hüquqlarının qorunması" mövzusunda konfransdan və orada münaqişə zonaları və eləcə də Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı haqda faktlara əsaslanan məlumatları konfransda iştirak edən, müxtəlif ölkələri təmsil edən iki yüzdən çox nümayəndənin diqqətinə çatdırmasından danışan Aureliya Qriqoriu konfransdan sonra ermənilərin ona mənəvi təzyiqlər göstərdiyini, onu hədələdiyini bildirib. O, SSRİ dağıldıqdan sonra postsovet məkanında münaqişələrin yarandığını, bu ölkələr arasında Moldova və Azərbaycanın da olduğunu qeyd edib. Ombudsman işğal, qaçqınların mövcudluğu, münaqişə zamanı insan hüquq və azadlıqlarının pozulması, soyqırımı kimi faktların beynəlxalq birliyin diqqətinə çatdırılmasının vacibliyindən danışıb. Moldovalı ombudsman Dağlıq Qarabağı işğal edən Ermənistanın və işğal altında olan ərazilərdə vəhşiliklər törədən şəxslərin adlarının məlum olduğunu və onların Beynəlxalq Məhkəmə tərəfindən məhkum olunmasının vacibliyini bildirib.

Tədbirdə çıxış edən Binəqədi Rayon Ziyalılar Cəmiyyətinin sədri, Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanması İnstitutunun rektoru Asəf Zamanov moldovalı ombudsmana Azərbaycan üçün göstərdiyi fədakarlığa görə təşəkkür edib, onun ölkəmizdə çox sevildiyini bildirib. O, moldovalı ombudsmanın Yerevanda Azərbaycanı müdafiə edən çıxışının beynəlxalq aləmdə böyük rezonans doğurduğunu və Azərbaycanın haqq səsinin konfransda olan beynəlxalq təşkilatların nümayəndələrinə çatdırılmasının mühüm hadisə olduğunu qeyd edib.

Sonda Aureliya Qriqoriu iştirakçıları maraqlandıran sualları cavablandırmışdır.

## İtaliyanın "Daily Cases" internet portalı:
## Mətbuatın Dağlıq Qarabağla bağlı susqunluğu istər-istəməz onu bu böyük ədalətsizliyin ortağına çevirir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 13-15-də İtaliyaya rəsmi səfəri bu ölkənin mətbuatının diqqət mərkəzində qalmaqda davam edir.***

AzərTAc xəbər verir ki, İtaliyanın "Daily Cases" internet portalında dərc edilmiş "Dağlıq Qarabağla bağlı "mətbuatın susqunluğu" sərlövhəli məqalədə Trans-Adriatik boru kəməri və Azərbaycanın Roma şəhərindəki Fori İmperialidə bərpa işlərinə vəsait ayırmaq niyyətinin səfərlə bağlı mətbuatda ən çox işıqlandırılan mövzular olduğu bildirilir.

Müəllif yazır ki, Azərbaycanın Roma şəhərindəki Fori İmperialidə bərpa işlərinə vəsait ayırmaq niyyəti ölkənin və onun xalqının təkcə İtaliya deyil, bütün bəşəriyyətə aid mədəniyyətin və abidələrin qorunması məsələsinə həssaslığını və hörmətini təsdiq edir. Bu vacib məsələlər haqqında danışılması və onların təşviq olunması təqdirəlayiqdir. Təqdir olunmayan isə odur ki, digər məsələlərlə müqayisədə maksimum üstünlük verilməli olan mövzular var ki, onlar haqqında alçaq səslə danışılır, bəzən isə üzərindən keçilir, xüsusən də belə vacib məqamlarda. Çünki Avropanın bir çox ölkələrində olduğu kimi, İtaliyada da Dağlıq Qarabağ münaqişəsi haqqında az danışılır. Çox güman ki, İtaliya əhalisinin əksəriyyəti Dağlıq Qarabağ haqqında heç nə bilmir. Heç bilmirlər ki, söhbət harada yerləşməsi haqqında təsəvvürləri belə olmayan yer adından gedir. Ancaq insanlar bilmək istəyirlər, bilməlidirlər də.

(Ardı 2-ci səhifədə)

*Döyüş hazırlığı*

# Yeri görünən topçular



***Artilleriya vacib qoşun növlərindən biridir. Qarabağ müharibəsində peşəkarlığı ilə ad-san qazanan topçularımız az olmayıb. Müharibədə artilleriyanın böyük rola malik olduğunu yaxşı bilən zabitlər topçuların hazırlığına ciddi əhəmiyyət verirlər. "N" hərbi hissəsində yenicə səhra təlimindən qayıdan topçularla görüşüb onların döyüş hazırlığı ilə yaxından tanış olmaq istədim. Zabit Emil Eminov bildirdi ki, hazırda bütün heyətlər məşğələ yerindədir. Onunla birgə topçuların dərs yerinə gəldik. Ərazidə heyətlər məxsus olduqları artilleriya qurğularının yanında şəxsi hazırlıqlarını artırırdılar. Zabit söylədi ki, bütün heyətlərdə döyüş və mənəvi-psixoloji hazırlıq yüksək səviyyədədir. Onlar bu yaxınlarda başa vurduqları taktiki təlimdə öz məharətlərini göstəriblər, bacarıqlı döyüşçü olduqlarını bir daha təlimdə təsdiq ediblər.***

Bir qədər aralıda bir top heyətinin çevik məşqləri diqqətimi çəkdi. Zabit E.Eminov tərəddüd etmədən heyətin yanına getməyi məsləhət bildi. Fürsət tapıb zabitin xidmət yolu ilə yaxından tanış oluram. Emil Qarabağ döyüşlərinin ağrılı-acılı illərini yaşamış zabitlərdəndir. Bütün bu sınaqlardan zabit üzüağ çıxıb. Topçu kimi hər zaman sayılıb.

Budur, məşğələ yerindəyik. Baş leytenant Asim Ağakərimov tabeliyində olan heyətə yeni mövzunu izah edir və praktiki çalışmaları yerinə yetirməyi tələb edir. 2009-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirən Asim həmin vaxtdan bu hərbi hissədə xidmətə başlayıb. Bu gün də yorulmadan bilik və bacarıqlarını tabeliyində olan şəxsi heyətə aşılayır.

- Top komandiri əsgər Telman Qəhrəmanov, - deyə özünü təqdim edən ucaboy, idmançı görkəmli hərbi qulluqçu ilk görünüşdən xoş təsir bağışladı.

Müddətdən artıq xidmət edən hərbi qulluqçu cəmi üç aydır xidmətə başlayıb. Topçu olmaq arzusunda olduğunu deyən əsgər məqsədinə çatdığı üçün razı görünürdü. Onun əldə etdiyi uğurlardan danışmaq hələ tezdir. Ancaq qısa zamanda bölmədə bacarıqlı top komandiri kimi ad-san qazanıb.





Əsgər Abgül Xəlilov isə baş tuşlayıcıdır. Qusar rayonundan hərbi xidmətə gələn Abgül deyir ki, bir ildən artıqdır xidmət edir. Bu müddət ərzində komandirlərin köməyi sayəsində top haqqında müfəssəl biliklər qazanıb. Sonuncu təlimdə onun təmsil olunduğu top heyəti xüsusi fərqlənib və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun adından heyət üzvlərinə təşəkkür elan edilib.

Digər heyət üzvlərinə gəlincə, onlar da yüksək döyüş vərdişlərinə yiyələniblər. Mahmud Mahmudov, Elşən Quliyev, İsaq Aslanov, Ənvər Məmmədov və İnam Məmmədov öz bacarıqlarını əməli fəaliyyətləri ilə təsdiq ediblər.

Məşğələ yerində çiyni kursant paqonlu iki hərbi qulluqçu da diqqətimi çəkdi. Onlar məşğələ zamanı öz təcrübələrini artırırdılar. Öyrənirəm ki, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantları Xəqani Əliyev və Fəhmin Hüseynov gələcəyin artilleriyaçı zabitləri olacaqlar. Bu məqsədlə onlar mükəmməl təcrübə toplamaq həvəsində olduqlarını bildirdilər.

Tanış olduğum gənc artilleriyaçıların hər biri ölkəmizin müxtəlif bölgələrini təmsil etsələr də, onları birləşdirən məqsəd birdir: yüksək hərbi bilik və bacarıqlara yiyələnməklə qarşıya qoyulan istənilən döyüş tapşırığını yerinə yetirmək!

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq seminarda iştirak edəcəklər

İyulun 21-dən 25-dək Bakı şəhərində "Hərbi xidmətkeçmənin idarə olunmasında peşəkar hazırlıq" mövzusunda seminar keçiriləcək.

Tədbirdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

**19 iyul 2014-cü il.**

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 34 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Ağdam rayonunun Mərzili, Yusifcanlı, Tərtər rayonunun Çiləbürt, Qızıl Oba, Goranboy rayonunun Tapqaraqoyunlu, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

**20 iyul 2014-cü il.**

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 38 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Füzuli rayonunun Qorqan, Qaraxanbəyli, Aşağı Əbdürrəhmanlı, Ağdam rayonunun Mərzili, Yusifcanlı, Cəbrayıl rayonunun Mehdili, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

**22 iyul 2014-cü il**

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 37 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının Noyemberyan rayonunun Barekamavan və İcevan rayonunun Berkaber kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun ərazisindəki adsız yüksəkliklərdə və Qızılhacılı kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndlərində yerləşən mövqelərimiz də atəşə məruz qalıb.

Füzuli rayonunun Aşağı Veysəlli, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, Horadiz, Ağdam rayonunun Sarıcalı, Yusifcanlı, Şıxlar, Mərzili, Baş Qərvənd, Şuraabad, Tərtər rayonunun Göyarx, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

# Hərbi qulluqçular avtomobil qəzasına uğrayıb

İyulun 19-da saat 23.40 radələrində Tərtər-Hindarx yolunun Köçərli kəndi ərazisində içərisində hərbi qulluqçular olan minik avtomobili qəzaya uğrayıb.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Əhlimanlı Koroğlu Elman oğluna məxsus "VAZ 2107" markalı avtomobildə idarəetmənin itirilməsi nəticəsində qəza baş verib.

Nəticədə leytenant Əsgərzadə Anar İlham oğlu (19.05.1990-cı il təvəllüdlü, 2008-ci il tarixdə Zaqatala rayonundan hərbi xidmətə çağırılıb) həlak olub.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Rəfizadə Nurlan Rəfail oğlu (19.07.1994-cü il təvəllüdlü, 30.04.2014-cü il tarixdə Tərtər rayonundan hərbi xidmətə çağırılıb), müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Əhlimanlı Koroğlu Elman oğlu (17.06.1993-cü il təvəllüdlü, 05.07.2011-ci il tarixdə Tərtər rayonundan hərbi xidmətə çağırılıb), müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Bəylərov Emin Nuqay oğlu (01.02.1992-ci il təvəllüdlü, 30.06.2014-cü il tarixdə Tərtər rayonundan hərbi xidmətə çağırılıb) müxtəlif dərəcəli bədən xəsarətləri alıblar.

Hərbi qulluqçulara ilkin tibbi yardım göstərildikdən sonra onlar hospitala yerləşdiriliblər.

Koroğlu Əhlimanlının vəziyyəti stabil ağır, Nurlan Rəfizadə və Emin Bəylərovun vəziyyəti isə kafi qiymətləndirilir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, xəsarət alanlara xüsusi tibbi yardım göstərilməsi üçün 1 ədəd müasir tipli reanimobillə Silahlı Qüvvələrin baş neyrocərrahı və reanimatoloqu təcili hadisə yerinə ezam olunublar.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

**(Əvvəli 1-ci səhifədə)**

## İtaliyanın "Daily Cases" internet portalı:
# Mətbuatın Dağlıq Qarabağla bağlı susqunluğu istər-istəməz onu bu böyük ədalətsizliyin ortağına çevirir

Məqalədə deyilir: "Mən Dağlıq Qarabağ münaqişəsinin "unudulmuş münaqişə" olması haqqında çox eşitmişəm, ancaq həqiqət başqadır. Həqiqət ondan ibarətdir ki, bu münaqişə haqqında danışılmır. Bəlkə münaqişəyə cəlb olunmuş ölkələrdən birinin əhalisi xristiandır, ona görə?! Ancaq biz italyanlar heç vaxt öz dostlarımızı onların mənsub olduğu dinə görə seçmirik. Bəlkə biz iki tərəfdən heç birini narazı salmaq istəmirik?! Ancaq bu vəziyyət hər bir halda beynəlxalq hüquqa, hər şeydən öncə isə həqiqətə zərər yetirir. Həqiqət isə odur ki, Ermənistan və Azərbaycan arasındakı münaqişənin nəticəsi olaraq bu gün Azərbaycanda 1 milyondan artıq qaçqın və məcburi köçkün yaşayır. Bu, danılmaz faktdır. Danılmaz faktdır ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış torpaqlarının 20 faizi 20 ildən artıqdır ki, ermənilər tərəfindən işğal olunub, baxmayaraq ki, beynəlxalq təşkilatlar dəfələrlə Ermənistana işğalçı qüvvələrini Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarmaqla bağlı xəbərdarlıq edib. Bu, bir faktdır ki, 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələri çoxlu sayda mülki şəxsi - 106-sı qadın, 63-ü uşaq olmaqla 613 nəfəri qətlə yetirərək Xocalı şəhərinin, demək olar ki, bütün əhalisini qırdı. Bütün bunlar əsaslı faktlardır, lakin biz bu haqda danışa bilmirik. Dağlıq Qarabağ məsələsi daha geniş məsələdir və əlbəttə ki, onun haqqında bir neçə sətirlə danışmaq olmaz. Lakin bu haqda danışmaqdan qorxmaq lazım deyil. Müasir tariximizin bu böyük faciəsi arxasında gizlənən sükutdan qorxmaq lazımdır. Sükut ən təhlükəli silahdır, onun arxasında hər şeyi dəyişilməz saxlamaqla unutqanlığadək gətirib çıxarmağa çalışırıq. Bir xalqın, millətin tarixində, həmçinin öz yaxınlarını, evlərini, ləyaqətini, bir sözlə, hər şeyini bir anda itirən qardaş-bacılarının həyatında yer alan bu açıq yaranı bir anda unuda biləcəyini necə düşünə bilərsiniz?!"

Yazıda diqqətə çatdırılır ki, ötən həftələrdə Prezident İlham Əliyev iki mühüm tədbirdə - Strasburqda Avropa Şurasının Parlament Assambleyasında və ATƏT Parlament Aassambleyasının Bakıda keçirilən iclasında beynəlxalq ictimaiyyət qarşısında çıxış edərək xalqının çəkdiyi əziyyətləri, Dağlıq Qarabağdan olan məcburi köçkünlərin çətin şəraitini xatırladıb. Azərbaycan Prezidenti hər şeydən əvvəl xatırlatdı ki, BMT-nin 4 qətnaməsinə, ATƏT-in, Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının, İslam Əməkdaşlıq Təşkilatının və hətta ABŞ, Rusiya, Fransanın həmsədr olduqları ATƏT-in Minsk qrupunun qərarlarına baxmayaraq, ermənilər beynəlxalq hüququ pozmaqda davam edirlər, beləliklə də, Dağlıq Qarabağ münaqişəsi başlayandan indiyədək yaşanan acını daha da artırırlar. Bu mövzu ilə bağlı "mətbuatın susqunluğu" istər-istəməz mətbuatı bu böyük ədalətsizliyin ortağına çevirir.

# Ermənistan silahlı qüvvələrinin nəzarəti altında olan Azərbaycan ərazilərində təbii sərvətlərin qiymətləndirilməsinə başlanılıb

***Azərbaycan Respublikası ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində məruz qalınan itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupunun növbəti toplantısı keçirilib.***

Qrupun üzvlərinin və qiymətləndirmə üzrə dəvət olunmuş mütəxəssislərin iştirakı ilə keçirilmiş toplantıda Ermənistan silahlı qüvvələrinin nəzarəti altında olan Azərbaycan ərazilərində təbii sərvətlərin qiymətləndirilməsi məsələsi müzakirə edilib.

Həm də hesabat xarakteri daşıyan toplantıda qrupun geologiya üzrə mütəxəssisi Mirzəli Fətəliyevin məruzəsi dinlənilib. Müzakirələr zamanı qrupun Ekologiya və Təbii Sərvətlər Nazirliyinin nəzdində ətraf mühit və təbii sərvətlərə dair İnformasiya-Arxiv Fondunun materialları əsasında qiymətləndirilməsi üçün məqbul olan baza sənədlərinin tam surətdə kifayət edəcəyi qənaətbəxş hesab olunub. Beləliklə, işğal altında olan ərazilərdə təbii sərvətlərimizə dəyən zərərin qiymətləndirilməsinə başlanılıb.

**AzərTAc**

# Şəxsi heyətlə iş bacarıq və məharət tələb edir



***Silahlı Qüvvələrdə qarşıya qoyulan vəzifələri yerinə yetirmək üçün bölmələrin təkcə silah və texnikalarla təminatı yetərli deyil. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığı da hərbi kollektivlərdə döyüş ruhunun yüksəldilməsində böyük önəm kəsb edir.***

Bu gün Azərbaycan Ordusunda tərbiyə işinin arzuolunan səviyyəyə qaldırılması olduqca əhəmiyyətli bir məsələdir. Həm hərbi kollektivlərdə nizam-intizamın möhkəmləndirilməsi, həm də mənəvi-psixoloji hazırlıq və döyüş ruhunun yüksəldilməsi baxımından şəxsi heyətlə işləyən zabitlərə böyük ehtiyac var. Ona görə bu gün Silahlı Qüvvələrimizdə şəxsi heyətin tərbiyəsilə məşğul olan zabitlərin hazırlığına önəm verilir.

Bu günlərdə Təlim və Tədris Mərkəzində səxsi heyətlə işləyən zabitlərin hazırlıq səviyyəsini daha da artırmaq məqsədilə bir aylıq təkmilləşdirmə kursuna başlanılıb. Bu barədə bizimlə söhbətində təcrübəli zabit Nazim Əhmədov dedi:

- Müdafiə Nazirliyinin rəhbərliyi bu gün döyüşçülərimizin mənəvi-psixoloji hazırlığı ilə məşğul olan zabitlərin fəaliyyətinə xüsusi diqqət yetirir. Bölmələrdə komandirlərin şəxsi heyətlə iş üzrə müavinləri ştatının bərpa edilməsi dediklərimizə sübutdur. Əsas məqsəd isə hər şeydən öncə orduda hərbi intizamın yüksəldilməsi və mənəvi-psixoloji hazırlığın arzuolunan səviyyəyə qaldırılmasıdır. Şəxsi heyətlə iş bacarıq və məharət tələb edir. Bu vəzifələrə təyin edilmiş zabitlərimiz hərtərəfli hazırlığa malik olmalıdırlar ki, qarşıya qoyulan tapşırıqların öhdəsindən gəlməyi bacarsınlar.

Hazırkı mərhələdə ixtisasartırma kurslarına bölük komandirlərinin müavinləri cəlb ediliblər. Əsasən ön



mövqelərdə müdafiədə dayanmış hərbi hissələrdən ezam edilmiş şəxsi heyətlə iş üzrə zabitlər məşğələlərdə iştirak edirlər. Onlar bu vəzifələrə müxtəlif ixtisasçı zabitlər arasından seçilməklə və öz arzuları nəzərə alınmaqla təyin ediliblər.

Zabit Elnur Əmirov ali hərbi təhsil alıb və artilleriyaçı ixtisasına yiyələnib. Şəxsi heyətlə iş daha çox ürəyincə olduğundan ixtisasını dəyişmək qərarına gəlib. İndi o da digər həmkarları ilə kurslarda yeni ixtisasın sirlərinə yiyələnir. Onlarla Təlim və Tədris Mərkəzinin hazırlıqlı və təcrübəli zabitləri məşğələlər aparır və kursun tələblərinin mükəmməl mənimsənilməsi üçün əllərindən gələni əsirgəmirlər.

Səxsi heyətlə iş üzrə zabitlər burada ümumqoşun hazırlığı üzrə nəzəri və praktik məşğələlərdə iştirak edirlər. Taktika, atəş, mühəndis, rabitə, hərbi topoqrafiya və başqa hərbi ixtisaslar barədə onlar yetərli vərdişlərə yiyələnəcəklər. İlk növbədə isə dinləyicilər şəxsi heyətlə iş üzrə öz bilik və bacarıqlarını artıracaqlar. Hərbi psixologiya, sosiologiya, hüquq, beynəlxalq münasibətlər, Silahlı Qüvvələrdə tərbiyəvi işin təşkili və və hərbi diplomatiya sahəsində onlara lazımi biliklər aşılanacaq.

- Onlar kursu bitirdikdən sonra imtahan verəcəklər, - zabit Habil Kərimov bildirdi. - Sinaqları uğurla keçmiş zabitlərə sertifikatlar veriləcək. Bundan sonra şəxsi heyətlə iş üzrə komandir müavinləri xidmət etdikləri hərbi hissələrə qayıdacaqlar.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

*Təlim*

# Peşəkar mütəxəssislər hazırlanır



***Azərbaycanın hava məkanının düşmən təcavüzündən qorunması məqsədilə hərbi hava qüvvələrinin bölmələri ildən-ilə döyüş qabiliyyətini gücləndirir. Buna görə də bu qoşun hissələri müasir hərbi texnikalarla təchiz edilir, şəxsi heyətin döyüş hazırlığının yüksəlməsinə ciddi fikir verilir."N" hərbi hissəsi əsasən təlim-tədris mərkəzi statusu daşıyır. Burada bölgələrdə yerləşən hərbi hava qüvvələrinin tələbatını ödəmək üçün kiçik mütəxəssislər hazırlanır. Əvvəlki dövrlə müqayisədə hərbi hissənin maddi-texniki bazası möhkəmlənmiş və şəxsi heyətin sosial-məişət şəraiti yaxşılaşmışdır. Müxtəlif təlim bölmələrində çalışan hərbi müəllimlər müəyyən müddətdə təlim kurslarına cəlb edilən gənc mütəxəssislərə hərbi peşələrin sirlərini dərindən öyrədirlər. Bu məqsədlə şəxsi heyətlə həm nəzəri, həm də praktik məşğələlər keçirilir.***

Polkovnik-leytenant C. Ağayev söhbətimiz zamanı hərbi hissənin qarşısına qoyulmuş vəzifə və tapşırıqların son dərəcə məsuliyyətli olduğunu bildirərək deyir:

- Hərbi hissəmizdə həm hava sərhədlərinin qorunması məqsədilə döyüş növbətçiliyi həyata keçirilir, həm də başqa bölgələrdən bizə ezam edilən kiçik mütəxəssislərlə hazırlıq kursları keçirilir. Təcrübəli zabitlər tərəfindən təlimatlandırılan döyüş heyətləri komanda məntəqəsində mühüm əhəmiyyətli tapşırıqları icra edirlər. Bu heyətlərin tərkibində olan əsgərlərin döyüş təcrübəsinin artırılması daim əsas diqqət yetirilən məsələlərdən biridir.

İlk ordu quruculuğu dönəmindən Vətənimizdə hərbi xidmətini davam etdirən təcrübəli zabitə görə, hazırkı mərhələdə müddətdən artıq xidmət həqiqi hərbi qulluqçuların təlim kursları keçirilir. Təlim müddətində üzərlərinə düşən döyüş vəzifələrinin sirlərinə yiyələnən hərbi qulluqçular sonda imtahan verəcəklər və onlara şəhadətləndirmə veriləcək. Bu zaman onların hərtərəfli hazırlığına - həm döyüş, həm də mənəvi-psixoloji və fiziki hazırlıqlarına ciddi önəm veriləcəkdir. Hazırda ordu rəhbərliyinin qarşıya qoyduğu əsas tələblərdən biri kiçik mütəxəssislərə yüksək hərbi vərdişlərin aşılanması və onların hərbi xidmətə yetərli hazırlığını təmin etməkdir.

Budur, şəxsi heyətin mənəvi-psixoloji hazırlığına cavabdeh olan zabit - polkovnik-leytenant Azər Yaqubovla birgə müasir şəraitə malik olan təlim-tədris bölməsinin məşğələ keçirilən otaqlarına baş çəkirik. Radio-texniki qoşunlar bölməsinə məxsus olan siniflərdən birində müddətdən artıq xidmət həqiqi hərbi qulluqçularına hava hücumundan müdafiə bölmələrinin təyinatı və tapşırıqları mövzusunda növbəti məşğələ keçirilir.

Hərbi müəllim mayor Zaur İsmayılovun yenicə hərbi xidmətə qəbul edilmiş gənc mütəxəssislər barədə qənaəti nikbinliyə əsas verir. "Hiss edirəm ki, əsgəri xidmətlərini şərəflə başa vurmuş gənclərin hərbə marağı böyükdür və buna görə də onlar yenidən öz talelərini hərbi peşələrə bağlayıblar. Çoxlarının ailə taleyində ordu ilə bağlılıq var. Bəzilərinin valideynləri keçmiş hərbi əməliyyyatların iştirakçıları olublar, bəzilərinin də yaxınları, doğmaları hazırda zabit və gizir kimi hərbi xidmətdədirlər".

Hərbi müəllimin qeyd etdiyi kimi, fasilədə gənc mütəxəssislərlə söhbətlərimizdə



valideynləri döyüş yolu keçmiş gənclərlə tanış olduq. Məsələn, Mingəçevir şəhərindən olan hərbi qulluqçu Vaqif Qasımovun atası həm keçmiş Sovet ordusunun tərkibində Əfqanıstanda gedən hərbi əməliyyatlarda, həm də Qarabağ müharibəsində iştirak edib. Erkən çağlarından ailədə vətənpərvərlik tərbiyəsi görən mingəçevirli gənc yenidən taleyini orduya bağlamaq qərarına gəlib.

- Vaqif, yəqin ki, orduda xidmət etmək üçün vətənpərvərlik tərbiyəsinin mühüm əhəmiyyət kəsb etdiyini yaxşı bilirsən?

- Əlbəttə, elə mən özüm bu ruhda tərbiyə almışam, - dedi əsgər. - Atam həmişə tövsiyə edərdi ki, orduda xidmət edən hər kəs Vətəninə, xalqına ürəkdən bağlı olmalıdır. Mən əsgər kimi hərbi xidmətimi başa vurandan sonra yenidən orduya qayıtmaq qərarına gəldim. Atamın vətənpərvərlik əməllərini davam etdirməyə söz vermişəm.

Tərlan Quliyevin də yenidən orduya qayıtmasında, xüsusən də hərbi hava qüvvələrində xidmət etməsində təsadüf yoxdur. Çünki onun atası uzun müddət elə bu qoşun növündə zabit kimi xidmət edib. Vaqif kimi, Tərlan da söz verdi ki, ata yolunun layiqli davamçısı olacaq.

Gələcəyin peşəkar hərbi mütəxəssisləri olacaq vətənpərvər gənclərimizə yalnız bir arzumuz, tövsiyəmiz var: qoy hər kəs seçdiyi hərbi ixtisasa ürəkdən bağlansın və tabeliyində olan əsgərləri də sabahın bacarıqlı döyüşçüləri kimi hazırlamaq üçün öz səyini, təcrübəsini əsirgəməsin.

**Mayor**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**



*Əsgərin tribunası*

# "Təcrübəli döyüşçü olacağıma söz vermişdim"

***Məktubumu cəbhə bölgəsində yerləşən "N" hərbi hissəsinin döyüş postundan yazıram. Sumqayıt şəhərindən orduya çağırılmışam. 9 aydır hərbi xidmətdəyəm. Hələ çoxdan əsgər olmaq arzusunda idim. Müəllimlərimin, valideynlərimin mənfur düşmənlərin xalqımızın başına açdıqları müsibətlər haqqında danışdıqları məni çox hiddətləndirirdi. Ona görə də tez bir zamanda hərbi xidmətə başlamaq, düşmənlə üzbəüz dayanıb qorxmaz Vətən oğlu olduğumu göstərmək istəyirdim.***

Mən, əsgər Fuad Xanrzayev qumbaraatan köməkçisiyəm. Hərbi andı qəbul etdikdən sonra xidmətimi bu vəzifədə davam etdirirəm. Gəldiyim ilk gündən çox qürurluyam. Ön xətdə xidmət etmək şərəfli və məsuliyyətlidir. Qeyrətli Vətən oğulları ilə bir sıradayam. Xidmətimin ilk günündən özümə söz verdim ki, nizam-intizamlı olacağam. Valideynlərimə verdiyim sözə əməl edib şərəflə xidmət edəcəyəm. 9 aydır ki, Sumqayıtdan çox uzaqda, dağların qoynunda Vətənimizi qoruyuram. Mənə elə gəlir ki, bunu bacarıram və xidmətimin sonuna qədər uğurlarım daha çox olacaq. Məndən əvvəl xidmətə başlayan əsgər yoldaşlarımdan da çox razıyam. İlk gündən onlardan mehriban münasibət görmüşəm. Yaxşı yadımdadır, döyüş postuna ilk gəldiyimiz gün bizi leytenant Ruslan Eynullayev qarşıladı. Hər birimizlə fərdi söhbət apardı. Xidmətimizdə uğur arzulayıb, nizam-initzamlı və cəsur olmağımızı məsləhət gördü. Taqım komandirimiz bütün əsgərlərin qayğısına qalır. Hər birimizin problemi ilə maraqlanıb həll etməyə çalışır. O, bizə bilik və bacarıqlarını öyrətməkdən zövq alır.

Məktub vasitəsilə valideynlərimə də ürək sözlərimi çatdırmaq istəyirəm. Gələndə söz vermişdim ki, təcrübəli döyüşçü olacağam. Vədimə əməl etmək üçün öz üzərimdə səylə çalışıram. Ata, yadındadırsa həmişə söhbət edəndə, Vətənimizin qəhrəman övladlarından, onların vətənpərvərliyindən söz açar, mənə dəyərli məsləhətlər verərdin. Deyərdin ki, Vətən sərhəddən başlamır, evimizin kandarından, hər bir ailənin ocağından başlayır, sərhəddə bitir. İndi bu sözlərin nə qədər doğru olduğunu başa düşürəm. Ata, ana, məndən nigaran qalmayın. Xidmətimi uğurla başa vurub yanınıza qayıdacağam. Allaha əmanət olun.

Sonda bütün Azərbaycan əsgərlərinə demək istərdim ki, erməni qorxaqdır, amma hiyləgərdir. Hər an əldə silah ayıq-sayıq dayanmaq lazımdır. Düşmən yaxşı bilir ki, bizim damarlarımızdan qəhrəmanların qanı axır...

**Fuad XANRZAYEV,**
**"N" hərbi hissəsinin əsgəri**

*Gənc əsgərlərin hazırlığı*

# İlk hazırlıq sıradan başlanır

***Şəxsi heyətin geniş meydanda sıra hazırlığı məşğələsi keçməsi yaxınlıqdan keçən hər kəsin diqqətini cəlb edirdi. Məşğələnin gərgin anları idi. Əsgərlər verilən əmr və tapşırıqları cəld hərəkətlərlə yerinə yetirirdilər. Onların ayaqlarından qopan ritmik səslər ətrafa yayılır, eşidənlərdə xoş ovqat yaradırdı. Fasilədə şəxsi heyətlə ətraflı tanış oldum. Öyrəndim ki, əsgərlərə dərs keçən zabit Xalid Abışov ordumuzun sıralarında yenicə xidmətə başlayan vətənpərvər bir hərbçidir. İndiyə qədər əxz etdiyi hərbi bilik və vərdişləri tabeliyində olan əsgərlərə də həvəslə öyrədir. Dərs və təlimlərin hər dəqiqəsindən səmərəli istifadə etməyə çalışır.***



Söhbət zamanı leytenant Xalid Abışov bildirdi ki, bu gün sırada dayanan əsgərlər vəzifə borclarının öhdəsindən bacarıqla gəlirlər. Vətənə ürəkdən bağlı olan gənclər məşğələlərdə fəal iştirak edərək hərbi biliklərini artırırlar.

- Vətənə xidmət etmək, torpaqlarımızı göz bəbəyimiz kimi qorumaq müqəddəs vəzifədir, - deyə kiçik çavuş Hüseynli bildirdi. Torpaqlarımızın erməni işğalçılarının tapdağı altında qalması məni çox narahat edir. Ona görə də hərbi bilikləri, silahların sirlərini dərindən öyrənirəm ki, qarşıdakı döyüşlərdə uğur qazanım. Mən daim düşmənə nifrət hissi ilə yaşayıram. Əgər torpaqlarımızın azadlığı uğrunda döyüşlər başlayarsa, öndə vuruşmağa hazıram. Günlər, həftələr ötüb keçdikcə döyüş hazırlığımız daha da artır. İndi sırada addımlayan hər bir əsgərin döyüş hazırlığı yüksək səviyyədədir. Biz hər an düşmən üzərinə yeriməyə, torpaqlarımızı erməni işğalçılarından azad etməyə hazırıq.



Daha sonra əsgərlərdən Fəzli Mövlud, Valeh Bəşirli, Məhəmməd Əzizov, Zaur Səmədov, Röyal Haqverdiyev, Vəli Sultanov, Elşən Mirzəyev, Hüseyn Bayramov, Elvin Tundayev və başqaları ilə həmsöhbət oldum. Gələcək xidmətlərində uğurlar qazanacaqlarına əmin olan bu oğullar tapşırıqları can-başla yerinə yetirir, sırada inamla addımlayırlar.

Söhbətimiz başa çatdıqdan sonra şəxsi heyət sıra hazırlığı məşğələsini davam etdirdi. Budur, zabit Xalid Abışov yenə də əsgərlərə müxtəlif komandalar verməyə başladı. Şəxsi heyət isə tapşırıqları qüsursuz yerinə yetirmək üçün səylərini əsirgəmir. Əsgərlərin belə yüksək hazırlığı və vətənpərvərlik hissləri bizdə xoş təəssüratlar oyatdı.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Ombudsman Aparatının əməkdaşları ön cəbhədəki hərbi postlara baxış keçiriblər

***Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkilinin Müdafiə və Fövqəladə Hallar nazirliklərinin, həmçinin Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının rəhbərliyi ilə razılaşdırdığı plan-cədvəllərə müvafiq olaraq Ombudsman Aparatının əməkdaşları həmin qurumların səlahiyyətli nümayəndələri ilə birgə hərbi hissələrə, hospitallara və hərbi məktəblərə müntəzəm qaydada baş çəkməkdə davam edirlər.***

Ombudsman Aparatından AzərTAc-a bildirilib ki, əsas məqsəd hərbi qulluqçuların məişət şəraiti ilə tanış olmaq və həmin hərbi obyektlərdə insan hüquqlarının təmin olunması ilə bağlı vəziyyəti öyrənməkdir.

Ombudsman Aparatının nümayəndələri Müdafiə Nazirliyinin Qazax, Tovuz, Gədəbəy, Daşkəsən və Göygöl rayonları ərazisindəki hərbi hissələrinin düşmənlə təmas xəttində yerləşən bir sıra döyüş postlarında plan üzrə baxış keçiriblər.

Baxış zamanı şəxsi heyətin yüksək döyüş ruhu və psixoloji durumu, təkmilləşdirilmiş məişət şəraiti, xüsusilə modul tipli yataqxanaların istifadəyə verilməsi, qidanın keyfiyyəti və hərbi nizamnamələrə uyğun xidmətin təşkili müsbət qiymətləndirilib.

Aparatın əməkdaşları şəxsi heyətlə insan hüquqları, o cümlədən hərbi qulluqçuların hüquqları, müvəkkilin bu istiqamətdə fəaliyyəti, mövcud hərbi qanunvericilik və hərbi nizamnamələr mövzusunda söhbətlər aparıblar. Respublikamızda hüquqi maarifləndirmə, ideoloji və təlim-tərbiyə işlərinin, şəxsi heyətin Vətənə sədaqət və vətənpərvərlik hissinin gücləndirilməsi sahəsində tədbirlərin əhəmiyyəti vurğulanıb.

Görülən işlərin daha da təkmilləşdirilməsi üçün hərbi hissələrin komandanlığına müvafiq tövsiyələr verilib, habelə Ombudsman İnstitutunda insan hüquqları ilə bağlı hazırlanmış nəşrlər hərbi hissələrə hədiyyə edilib.

Baxış zamanı hərbi hissələrdə bir neçə hərbi qulluqçunun şifahi müraciətləri dinlənilib, onlara hüquqları və müvəkkilin səlahiyyətləri izah edilib.

# Xəbərlər: hadisələr, faktlar

## XXI əsrin sonunda dünya əhalisinin sayı 11 milyarda çatacaq



Dünya əhalisinin sayı 2100-cü ildə 11 milyarda çatacaq. Bu barədə Fransanın Demoqrafiya Araşdırmalar İnstitutu məlumat yayıb.

Məlumatda bildirilir ki, bu gün Yer kürəsində 7,141 milyard əhali yaşayır və 2100-cü ildə əhalinin sayı 10 milyardı ötəcək. 2050-ci ildə Afrika qitəsi 2,435 milyard əhalisi ilə planetimizin əhalisinin 15 faizini təşkil edəcək. Həmin dövrdə Asiyada əhalinin sayı 5,284 milyarda çatacaq.

Bu gün 63,9 milyon insanın yaşadığı Fransada əhalinin sayı 2050-ci ildə 72 milyon olacaq.

## Kiyev silahlılarla razılığa gəldi



Ukrayna hökuməti və rusiyapərəst silahlılar Malayziyaya məxsus Boeing 777 təyyarəsinin qəzaya uğradığı ərazidən sərnişinlərin cəsədlərinin ukraynalı mütəxəssislər və ATƏT müşahidəçiləri tərəfindən götürülərək ekspertizaya aparılması barədə razılığa gəlib. ANS PRESS-in məlumatına görə, bu barədə Ukrayna baş nazirinin müavini Vladimir Qroysman açıqlama verib.

Qeyd edək ki, iyulun 17-də axşam saatlarında Ukraynanın Donetsk vilayətində göyərtəsində 298 nəfərin olduğu Malayziyaya məxsus sərnişin təyyarəsi qəzaya uğramışdı. Hadisə nəticəsində sağ qalan olmayıb. Hazırda 196 cəsədin tapıldığı bildirilir.

## Donetsk aeroportu ələ keçirildi



Bazar gününə keçən gecə Ukrayna hərbçiləri Donetsk aeroportuna nəzarəti ələ alıb. ANS PRESS-in məlumatına görə, bu haqda informasiyanı Ukraynanın Müdafiə naziri Valeri Heletey yayıb. Onun sözlərinə görə, ərazidə ordunun yeni blokpostları qoyulub. Silahlı separatçılar blokpostlara yaxınlaşmır, hərbçilərin mövqelərini Donetsk yaxınlığından minomyot atəşinə tutur. Sərhəd rayonlarındakı hərbçilər iki dəfə minomyot atəşinə tutulub.

## Ölənlərin sayı 380-ə çatdı



Baş vermiş şiddətli atışmadan sonra İsrail tərəfi iki saatlıq "humanitar atəşkəs" elan etmişdi. ANS TV-nin məlumatına görə, lakin bir saat keçəndən sonra bu atəşkəs pozuldu. İsrail tərəfi "Həmas" qruplaşmasının atəşkəsə əməl etmədiyini bildirib. Atəşkəsdən sonra yenidən şiddətlənən atışmada Qəzza şəhərinin müxtəlif bölgələri raket atəşinə məruz qalıb. Fələstində ölənlərin sayı isə 380 nəfərə çatıb. İsrail tərəfdən isə 5 nəfərin, 3 hərbçi və 2 dinc sakinin həlak olduğu, 20-dən çox yaralının olduğu deyilir. Qəzza şəhəri ətrafında yaşayan yüzlərlə sakin yaşayış yerlərini tərk etməli olub. Şahidlər çox sayda ölü və yaralının olduğunu deyirlər. Ölənlər arasında "Həmas" qruplaşmasının liderlərindən birinin oğlu, gəlini və iki nəvəsinin olduğu deyilir. "Həmas" üzvləri də İsrailin atəşinə raket zərbələri ilə cavab verdiklərini bəyan ediblər.

## İranın dondurulmuş bank hesabları açılır



İran İslam Respublikasının nüvə proqramı ilə əlaqədar Vyanada Qərb dövlətləri ilə aparılan danışıqların nəticələri açıqlanıb. Bununla bağlı mətbuat konfransı keçirən xarici işlər nazirinin müavini Seyid Abbas İrakçı bildirib ki, yaxın 4 ay ərzində İranın xarici banklarda dondurulmuş 2 milyard 800 milyon dollar vəsaitinin sərbəstləşdirilməsi nəzərdə tutulur. Avqust ayında ölkənin bank hesablarına ilk olaraq 500 milyon dollar köçürüləcək.

Nazir müavini, həmçinin vurğulayıb ki, bununla yanaşı, İran dinc məqsədlər üçün nüvə proqramını həyata keçirməyə davam edəcək.

## Bağdadda terakt nəticəsində 22 nəfər ölüb



İraqın paytaxtı Bağdad şəhərində 3 şiə məhəlləsində minik maşınları partladılıb, azı 15 nəfər ölüb. ANS PRESS-in məlumatına görə, bir neçə saat öncə isə başqa bir ərazidə intiharçı hücumunda azı 7 nəfər həlak olub. Hücumlarda azı 42 nəfərin də yaralandığı bildirilir. Bu hücumlara görə məsuliyyəti İslam Xilafəti qruplaşması üzərinə götürüb. Qrup əvvəllər İraq və Şam İslam Dövləti adlanırdı.

## Portuqaliyanın əhalisi sürətlə azalmaqdadır



Portuqaliya sakinlərinin sayı sürətlə azalır. Keçən il ölkədə doğum səviyyəsi rekord dərəcədə aşağı olub. Bu, bütün Avropa İttifaqı məkanında Portuqaliyada ən aşağı göstəricidir. Avropa Statistika Komitəsinin məlumatına görə, 2013-cü ildə Portuqaliya əhalisinin sayı 60 min nəfər azalıb. İqtisadi böhranın və işsizliyin yüksək səviyyədə olmasının təsiri ilə sakinlər nəsil artırmağa "qorxurlar". Hazırda əhalisinin sayı 10 milyon olan Portuqaliyanın 2060-cı ilədək sakinlərinin sayı, hesablamalara görə, 4 milyon nəfər azalacaqdır.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

AZƏRBAYCAN ORDUSU

*Azərbaycan Milli Mətbuatı - 139*

# "Əkinçi" - Şərqdə doğulan bir günəş

***İlk milli dövrü mətbuat yaratmaq XIX əsrin ikinci yarısında maarifçilik bayrağını yüksəkliklərə qaldıran, bütün maneələrə sinə gərən mübariz jurnalist-publisist Həsən bəy Zərdabiyə nəsib oldu. Azərbaycan xalqının başına gələn bir çox bəlaların səbəblərini maarifin, elmin yoxluğunda, təhsilin məhdudluğunda görən böyük maarifçi ziyalının 1875-ci ildə "su altına qoyduğu daş" artıq əriməyə başlamış, beyinlərə təsir etmiş, müstəmləkə altında əziyyət çəkən Azərbaycan hüquqları və azadlığı uğrunda mübarizəyə qalxmışdı. O, bütün yaradıcılıq əzmini, jurnalist mətanətini "Əkinçi"nin meydana çıxmasına səfərbər etmişdi. Nəhayət, "Əkinçi"nin birinci nömrəsi 1875-ci il iyulun 22-də çapdan çıxdı. Həyat yoldaşı Hənifə xanım yazırdı: "Həsən bəyin gözləri sevincdən yaşarmışdı. O, çox həyəcanlı bir halda evə gəldi. Bu onun həyatının ən xoşbəxt bir günü idi".***

Ana dilində ilk milli qəzetin nəşri H.Zərdabinin həmfikirlərini, ziyalıları fərəhləndirdi. Qəzet bütün Rusiyada olan müsəlmanları hərəkətə gətirdi. "Əkinçi" maarifçi, demokratik ideyalar haqqında söhbət açdığı üçün tez bir zamanda hər tərəfə səs saldı. Qafqazın müxtəlif guşələrindən, Omskdan, Orenburqdan, Ufadan, Volqa boyundan, Krımdan və Dağıstandan təbriklər, məqalələr, abunələr gəlməyə başladı.

M.F.Axundovun "Əkinçi"yə qayğısı xüsusilə qeyd olunmalıdır. Zərdabinin Rusiyada təhsil alan tələbələri N.Vəzirov, Ə.Gorani və başqaları qəzetin nəşrini böyük sevinc və məhəbbətlə qarşıladılar. N.Vəzirov müəllimin yazırdı: "Qəzetin ilk iki nömrəsini aldım. Mənə qəzetin proqramını göndərin. Hərçənd çətin olsa da, burada abunəçilər taparam".

Nəşrinin ikinci ilində qəzetin oxucu şəbəkəsi bir qədər genişlənmiş, müxbirlərin sayı artmışdı. M.F.Axundov, S.Ə.Şirvani, N.Vəzirov, Ə.Gorani, M.T.Şirvani, Ə.Heydəri, M.Əlqədari və M.Dərbəndinin şeir, məqalə və məktubları qəzeti daha da oxunaqlı etmişdi.

H.Zərdabi maarifçi-demokratik ideyaların carçısı və tribunası olan "Əkinçi"ni kəsərli ideya silahına çevirmişdi. Qırılmaz tellərlə mütərəqqi ideya mənbələrinə






bağlanan "Əkinçi" bir tərəfdən Azərbaycanda maarifçi-demokratik ruhlu elm, ədəbiyyat nümayəndələrinin, digər tərəfdən inqilabçı demokratların, Avropa mütəfəkkirlərinin ədəbi-elmi və publisist irsindən, habelə şərq müdrikliyindən bəhrələnirdi.

"Əkinçi" geriliyə, cəhalətə, xürafata qarşı kəskin mübarizə aparırdı. Qəzet elmin, maarif və mədəniyyətin təbliği, mövhumat və cəhalətin tənqidi ilə kifayətlənməyib, feodal istismarına qarşı etiraz edir, xalqı var-yoxdan çıxaran, onun hüquqlarını əlindən alan, insan şəxsiyyətini tapdalayan mövcud üsul-idarəyə etirazını bildirirdi.

Ana dilinin saflığı və milli publisistikanın formalaşmasında qəzetin tarixi xidmətləri vardır. N.Vəzirov Zərdabiyə yazırdı ki, "Əkinçi" mənim ana dili müəllimimdir". Bu sözlərdə böyük bir həqiqət ifadə olunmuşdu.

"Əkinçi"nin bir qərinə əvvəl yandırdığı maarifçilik məşəli 1905-ci il inqilabının təsiri ilə doğulmuş mütərəqqi mətbuat orqanlarında yenidən parladı. Bu ideyaları təzə əsrin ibtidasında davam və inkişaf etdirən demokratik mətbuat nümunələrindən biri də ətrafına C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, M.S.Ordubadi, Ə.Nəzmi kimi məşhur ziyalıları toplamış "Molla Nəsrəddin" məcmuəsi idi.

"Əkinçi" və "Molla Nəsrəddin" öz dövrünün parlaq salnaməsidir. Həmin mətbu orqanlar fikrən, əqidəcə yaxın idi. "Əkinçi"nin dövrün qulağına pıçıldadıqlarını "Molla Nəsrəddin" zamanın üzünə ucadan söyləmişdi. "Əkinçi", sözün həqiqi mənasında, "Molla Nəsrəddin"in sələfidir. Mübaliğəsiz demək olar ki, "Əkinçi"dən "Molla Nəsrəddin"ə gedən yol ədəbiyyat və incəsənətimizdə yeni bir mərhələ idi.

Qeyd edək ki, "Əkinçi" öz dövrünün ədəbi aynası olmuş, M.F.Axundov, H.Zərdabi, S.Ə.Şirvani, N.Vəzirov, M.T.Şirvani, Ə.Gorani, Ə.Heydəri kimi tərəqqipərvər yazıçı və publisistlərin yaradıcı əməyi sayəsində Azərbaycanda maarifçi-realist ədəbiyyatın bayrağını yüksəkliklərə qaldırmış, ictimai, elmi və fəlsəfi fikrin inkişafında böyük rol oynamışdı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Qan yaddaşımız

***Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Laçın (17 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

# Silahlı Qüvvələrin Baş Klinik Hospitalında daha bir unikal cərrahiyyə əməliyyatı uğurla həyata keçirilib



***1995-ci ildən Türkiyənin Gülhanə Hərbi Tibb Akademiyasında təhsil almış və ötən il Silahlı Qüvvələrin Baş Klinik Hospitalında ürək-damar şöbəsinin qurulması üçün Azərbaycana dəvət olunan tanınmış cərrah Anar Əmrahla iyulun 22-də jurnalistlərin görüşü keçirilib.***

- 9 aydır ki, fəaliyyətdə olan ürək-damar mərkəzi Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin xüsusi diqqət və qayğısı nəticəsində açılmışdır, - deyə Anar həkim bildirib. - Açılış zamanı fəaliyyətimizlə yaxından tanış olan Ali Baş Komandan, ən müasir tibbi avadanlıqlarla təchiz edilmiş mərkəzimizin yalnız hərbçilərə deyil, bütün ölkə vətəndaşlarına xidmət göstərməsini tövsiyə etmişdir.

"Qısa müddətdə 30 nəfərdən ibarət tibb heyəti Gülhanə Hərbi Tibb Akademiyasının ürək-damar mərkəzində xüsusi təlim və təhsil almışdır. Qeyd etmək istəyirəm ki, şöbəmizdə indiyə qədər 150 açıq ürək əməliyyatı uğurla həyata keçirilib. Belə mürəkkəb ürək əməliyyatları zamanı heç bir itkinin olmaması başlıca uğurumuzdur. Əməliyyat olunanlar içərisində hərbçilər, onların ailə üzvləri və mülki şəxslər də var".

Bu yaxınlarda hərbi səhiyyədə nadir rast gəlinən bir hadisə ilə rastlaşdıq, - deyə həkim söhbətinə davam edib. - Səngərdə ümumi yuxu arteriyasının tam qopmasıyla zədələnən bir əsgər hərbi ambulans-helikopterlə mərkəzimizə çatdırılmışdı. Uğurlu əməliyyatla beyinə gedən yuxu arteriyası əsgərin öz venası ilə əvəz edilərək bərpa olundu. Əməliyyatdan 1 ay sonra hərbi qulluqçu sağ-salamat evlərinə göndərildi.

"Xüsusilə qeyd etmək istəyirəm ki, damar xəstəliklərinin ən ağır fəsadlarından biri ağciyərin tromboemboliyasıdır və təəssüflər olsun ki, yanlış diaqnoz nəticəsində xəstə həyatını dəyişir. Ancaq Amerikada ağciyərin tromboemboliyasının müalicəsi üçün tətbiq olunan bu yeni müasir metod ilk dəfə Silahlı Qüvvələrin Baş Klinik Hospitalının ürək-damar şöbəsində həyata keçirildi və 59 yaşlı xəstənin ağciyər arteriyasına xüsusi katater yerləşdirilərək, ultrasəs dalğaları və trombolitik dərmanlarla 15 saat ərzində trombun 95 faizi əridildi və nəticədə xəstənin tənəffüsü bərpa edildi. Eyni zamanda gələcəkdə aşağı ətrafdan ağciyərə trombun getməsinin qarşısını almaq məqsədilə aşağı boş venaya xüsusi filtr yerləşdirildi. Əməliyyat uğurla həyata keçirilib və xəstənin vəziyyəti normaldır.

Uzun müddət Türkiyədə çalışmış mütəxəssis Azərbaycanda artıq tibb elminin son nailiyyətlərinin uğurla tətbiq edildiyini qürur hissi ilə vurğuladı. "Artıq hərbi səhiyyə ocaqlarımız da yenidən qurulur, burada əsgər və zabitlərimizə intensiv xidmət göstərilir".

Sonda ürək-damar cərrahı Anar Əmrah jurnalistlərin suallarını cavablandırıb.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,,**
**"Azərbaycan Ordusu"**

# Milli Mətbuat Günü qeyd edilib

***Azərbaycanın müstəqillik dövründən üzü bəri təmtəraqla qeyd olunan əlamətdar günlərimiz sırasında 22 İyul - MIli Mətbuat Gününün də öz yeri var. Müasir dövlətçiliyimizin bütün sahələrində olduğu kimi, ölkəmizdə azad medianın inkişaf uğurları da böyük öndər Heydər Əliyevin adı ilə bağlıdır.***



Məhz onun təşəbbüsü və diqqəti sayəsində Azərbaycan mətbuatı mütərəqqi inkişaf yoluna qədəm qoymuşdur. Hazırkı mərhələdə ümummilli liderin siyasi kursunun yetirməsi olan Prezident, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi mühüm islahatlar sırasında mətbuatın müasir tələblər səviyyəsində inkişaf etdirilməsi önəmli yer tutur. Təkcə bir faktı vurğulamaq kifayətdir ki, Azərbaycan bəlkə də dünyanın nadir ölkələrindən biridir ki, burada jurnalistlər dövlət hesabına mənzillərlə təmin edilir. Bu, media kollektivlərinə dövlətimizin rəhbərliyi tərəfindən göstərilən yüksək qayğının ən parlaq nümunəsidir.

Builki peşə bayramı Silahlı Qüvvələrimizin sıralarında xidmət edən media kollektivi üçün daha əlamətdar keçirilib. Öncə qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov bütün ölkə mətbuatının nümayəndələrini əlamətdar peşə bayramı münasibətilə təbrik edib və onlara ən xoş arzularını bildirib.

Ordu rəhbərliyinin diqqət və qayğısının nəticəsi olaraq Müdafiə Nazirliyi sistemində fəaliyyət göstərən media qurumlarının nümayəndələri müxtəlif mükafatlarla təltif edilib.



Ötən gün Milli Mətbuat Günü münasibətilə keçirilən tədbiri giriş sözü ilə açan Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin şöbə rəisi polkovnik İslam Gəncəliyev öncə nazirliyin rəhbərliyi adından kollektivi təbrik edib və uğurlar arzulayıb.

Müdafiə nazirinin təbrik məktubunu oxumaq üçün nazirliyin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlıya söz verilib.

Sonra Mətbuat Xidməti, "Azərbaycan Ordusu" qəzeti, "Hərbi bilik" jurnalı, Sənədli və Tədris Filmləri Kinostudiyası və Hərbi nəşriyyatın nümunəvi fəaliyyəti ilə fərqlənən hərbi qulluqçuları və mülki əməkdaşları mükafatlandırılıb.

**"Azərbaycan Ordusu"**

# Müharibə əlilləri minik avtomobilləri ilə təmin olundu

***Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2014-cü il 30 aprel tarixli sərəncamının icrasına uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 100 nəfər 1941-1945-ci illər Böyük Vətən müharibəsi əlili və onlara bərabər tutulan şəxs "Naz-Lifan" markalı minik avtomobili ilə təmin edilib.***

Avtomobillərin təqdimetmə mərasimində Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini İlqar Rəhimov, Respublika Əmək, Silahlı Qüvvələr və Hüquq Mühafizə Orqanları Veteranları Şurasının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev, Əfqanıstan Müharibəsi Veteranları İctimai Birliyinin sədri Məhəmməd Vəliyev, Çernobıl Əlilləri İttifaqının prezidenti Mirhəsən Həsənov və başqa təşkilatların nümayəndələri iştirak etmişlər. Avtomobillərin sahiblərindən 52 nəfəri Böyük Vətən müharibəsi əlili, 5 nəfəri Çernobıl əlili, qalanları isə hərbi xidmət vəzifələrini yerinə yetirərkən əlil olanlardır. Tədbirdə İ.Rəhimov ölkə Prezidenti cənab İlham Əliyevin sosial cəhətdən həssas əhali qruplarına bütün sahələrdə göstərdiyi yüksək diqqət və qayğısından danışdı, minik avtomobillərinin açarlarını sahiblərinə təqdim etdi.

Avtomobillərin sahiblərinə təqdimetmə mərasimində bildirildi ki, Azərbaycan Prezidentinin 2013-cü il 23 dekabr tarixli sərəncamına əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən cari ilin aprel-may aylarında 677 nəfər Qarabağ müharibəsi və 20 Yanvar əlilinə minik avtomobili verilib. Bununla da cari ilin əvvəlinədək növbədə olan Qarabağ müharibəsi və 20 Yanvar əlillərinin avtomobillə tam təminatına nail olunub.

Ötən aydan etibarən isə Azərbaycan Respublikası Prezidentinin "1941-1945-ci illər Böyük Vətən müharibəsi əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi avtonəqliyyatla təmin edilməsi sahəsində əlavə tədbirlər haqında" 2014-cü il 30 aprel tarixli sərəncamının icrasına başlanılıb. 2014-cü ilədək növbədə dayanmış Böyük Vətən müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslərdən artıq 423 nəfəri avtomobillə təmin edilib. Belə şəxslərin avtomobillə tam təminatının gələn ay başa çatdırılması planlaşdırılır. Ümumilikdə son 3 ay yarım ərzində avtomobillə təmin olunanların sayı 1100 nəfərə çatıb.

Tədbirin sonunda Böyük Vətən müharibəsi əlilləri və onlara bərabər tutulan şəxslər Azərbaycan Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmizin hərtərəfli və surətli inkişafından qürur hissi keçirdiklərini vurğulayaraq onlara göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizin rəhbərinə minnətdarlıqlarını ifadə etdilər.

**Lalə ADİLQIZI,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Güləşçilərimiz dünya çempionatında iki qızıl və iki gümüş medal qazanıblar



Slovakiyanın Snina şəhərində yeniyetmə güləşçilərin dünya çempionatı başa çatıb. Çempionatın sonuncu mərhələsində yeniyetmə sərbəst güləşçilər mübarizəyə qoşulublar. Güləşçilərimiz iki qızıl və iki gümüş medalla başa vurublar. Teymur Məmmədov (63 kq) və Şamil Sadullayev (85 kq) bütün rəqiblərindən üstün olub. Əfqan Xaşalov (50 kq) və Mahir Əmiraslanov (58 kq) gümüş medalla kifayətlənib.

Qızlarımızdan Leyla Qurbanova (49 kq) finalda Yaponiya təmsilçisi ilə gərgin keçən görüşü uduzub və gümüş medalla kifayətlənib.

## Taekvondoçularımız "Korea open" turnirində iki medal qazanıb



Azərbaycanın taekvondo üzrə gənclərdən ibarət milli komandası Cənubi Koreyadan Vətənə qayıdıb. Azərbaycan Taekvondo Federasiyasından AzərTAc-a bildiriblər ki, "Korea open" turnirinə səkkiz idmançı ilə qatılan komandamız iki medal qazanıb.

Gənclər arasında Yay Olimpiya Oyunlarına lisenziyanın sahibi Səid Quliyev (78 kq) bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Gənclər arasında son dünya birinciliyinin qalibi Məhəmməd Məmmədov (63 kq) isə yalnız final döyüşündə məğlub olaraq gümüş medala layiq görülüb.

## "Qarabağ"ın bəxtinə "Zalsburq" düşdü



Bu gün Çempionlar Liqasının III təsnifat mərhələsinin püşkü atılıb. Azərbaycan çempionu "Qarabağ"ın da potensial rəqibi müəyyənləşib.

Ağdam klubu II təsnifat mərhələsində qarşılaşdığı Malta "Valletta"sını adlasa, Avstriyanın "Zalsburq" klubu ilə görüşəcək. Bunun üçün Qurban Qurbanovun yetirmələri səfərdə 1 qolla məğlub etdiyi maltalılara Bakıda uduzmamalıdır.

"Qarabağ"ın potensial rəqibləri arasında ən yüksək reytinqə sahib olan və ən təhlükəli rəqib sayılan Avstriya çempionu mübarizəyə birbaşa bu mərhələdən qoşulur.

## "İnter" İsveçin "Elfsborq" klubuna səfərdə qalib gəlib



Avropa Liqasının 2-ci raundu çərçivəsində Bakının "İnter" komandası İsveçin "Elfsborq" futbol klubuna qalib gəlib.

AzərTAc xəbər verir ki, keçirilən oyun 1:0 hesabı ilə "İnter"in xeyrinə başa çatıb.

Oyunda yeganə topu rəqib qapısından "İnter"in yarımmüdafiəçisi Slavço Georgiyevski keçirib.

## Azərbaycanlı velosipedçi İtaliyada birinci olub




Dünya kuboku və Avropa çempionatı ərəfəsində çıxışlarını davam etdirən velosiped idmanının trek növü üzrə Azərbaycan yığma komandası İtaliyada birinci kateqoriyalı "Giorni delle Rose" kuboku yarışında iştirak edib.

Azərbaycan Velosiped İdmanı Federasiyasından AzərTAc-a bildiriblər ki, yığma komandamızın üzvü Olqa İsmayılova 200 metr məsafəyə sprint yarışında bütün rəqiblərini geridə qoyaraq turniri birinci pillədə başa vurub. İdmançımız bu uğuru ilə reytinqinə 80 xal əlavə edib. O.İsmayılova keyrində də uğurla çıxış edərək ikinci yeri tutmaqla reytinqini daha 72 xal artırıb.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Müddətdən artıq xidmət edən hərbi qulluqçu kiçik çavuş Həsənov Nemət İslam oğluna 2009-cu ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki-üç dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 243
Nüsxə 4570